## OT KÖKLƏRİ VƏ İNSAN TƏHLÜKƏSİZLİYİ QRANT YARDIMI PROQRAMI
## “Daşkəsən rayonunun Xoşbulaq kəndində içməli su təchizatı obyektinin tikintisi planı” layihəsi üzrə qrant müqaviləsi imzalandı

3 mart 2023-cü il tarixində Yaponiyanın Azərbaycandakı səfiri Vada Cüniçi və “Daşkəsən rayonunun Xoşbulaq kəndində içməli su təchizatı obyektinin tikintisi planı” layihəsi üzrə benefisiar təşkilat qismində çıxış edən “Gəncə Regional Qadın Mərkəzi” İctimai Birliyi arasında qrant müqaviləsi imzalanmışdır.

Bu layihənin əsas məqsədi Daşkəsən rayonunun Xoşbulaq kəndində içməli su təchizatı obyektinin (su toplama nöqtəsi (1 ədəd), su anbarı (1 ədəd), su borusu (6,148 metr), 3 paylayıcı, 4 bulaq (tap-stand) ilə təmin olunmuş su sisteminin inşa edilməsi olub, kəndin su sisteminin vəziyyətinin yaxşılaşdırılması ilə yerli əhalinin gündəlik həyat və gigiyenik şəraitinin yaxşılaşdırılmasına nail olmaq nəzərdə tutulur. İnşa olunacaq su sisteminin 4 bulağından ikisi kəndin tibbi məntəqəsi və məktəb ərazisində yerləşdiriləcək. Bu layihə icra edildikdən sonra, su təchizatı sisteminin dayanıqlı idarə edilməsini təmin etmək üçün Xoşbulaq kənd bələdiyyəsinə ötürüləcək. Bu layihənin inşası, avadanlıqların alınması, texniki dəstəyi üçün Yaponiya hökuməti 85,821 ABŞ dolları (təqribən 145,038 AZN) məbləğində qrant ayırmışdır.

Bu gün imzalanmış müqavilə də daxil olmaqla, Azərbaycanda “Ot Kökləri və İnsan Təhlükəsizliyi” üzrə Qrant Yardım Proqramı çərçivəsində bu günədək cəmi 285 qrant müqaviləsi imzalanıb və bu müqavilələrin ümumi qrant məbləği 24,070,000 ABŞ dollarını (40,680,000 AZN) keçir.

“Ot kökləri və İnsan Təhlükəsizliyi Qrant yardımı” proqramı Azərbaycan əhalisinin sosial rifahının yaxşılaşdırılması məqsədi ilə, bilavasitə yerli əhalinin bəhrələnəcəyi nisbətən kiçik miqyaslı layihələrin həyata keçirilməsi üçün nəzərdə tutulan iqtisadi yardım proqramıdır. Bu günədək təhsil, səhiyyə, ictimai sağlamlıq sahəsinin inkişafına yardım prioritet xarakter daşımışdır. Bu yardımla bağlı yerli bələdiyyə və icra hakimiyyəti orqanları, qeyri-hökumət təşkilatları, təhsil, səhiyyə orqanları və digər qeyri-kommersiya qurumları Yaponiyanın Azərbaycandakı Səfirliyinə müraciət edə bilərlər.



